# Xankəndidə seçki bayramı yaşandı

Fevralın 7-də bütün dünya Xankəndidə baş verən tarixi hadisəni izlədi. 30 ildən çox idi Xankəndidə Azərbaycanla bağlı seçki keçirilmirdi. Dünən isə Xankəndinin tarixinə qızıl hərflərlə yazıldı. Burada keçirilən demokratiya hadisəsinə dünyanın bəzi "əlindəki kartları zərərsizləşdirilmiş" ölkələri şahid oldular.

→ 8

# Xankəndidə seçki bayramı yaşandı





Dünən Xankəndi sevinc içində idi, qollarını geniş açıb illərlə ona həsrət qalmış insanlara qucaq açmışdı. Düşmən tapdağından azad edilmiş Xankəndinin küçələri, binaları üçrəngli Azərbaycan bayraqları ilə bəzədilmişdi. Burada erməni faşistlərinin eybəcər rəmzləri, murdar simvolları, dəyərsiz əski parçalarının izi belə qalmamışdı.






Dünən bu şəhərdə tarixi bir hadisə - prezident seçkisi keçirildi, bir ayrı mətləbdən xəbər verən seçki. Dünən bu şəhərdə bayram idi - seçki bayramı.

Fevralın 7-də bütün dünya Xankəndidə baş verən tarixi hadisəni izlədi. Ona görə tarixi hadisə deyirik ki, 30 ildən çox idi Xankəndidə Azərbaycanla bağlı seçki keçirilmirdi. Dünən isə Xankəndinin tarixinə qızıl hərflərlə yazıldı. Burada keçirilən demokratiya hadisəsinə dünyanın bəzi "əlindəki kartları zərərsizləşdirilmiş" ölkələr şahid oldular. Xankəndidəki seçki Ermənistana havadarlıq edən bəzi ölkələrin əlindəki "demokratiya qılıncı"nı belə sındırdı.

Azərbaycan xalqı təkcə demokratiyanın təntənəsini yox, həm də Zəfər tarixinin bir ilkini yaşadı. Dünənki prezident seçkisi müstəqil Azərbaycanın bütün ərazilərində baş tutdu.

Xankəndidə baş verən ən qürurlu hadisə, uğurlu addım, gözlənilməz gediş isə İlham Əliyevin ailə üzvləri ilə birlikdə orada səsverməsi oldu. 2024-cü ilin 7 fevral günü İlham Əliyev Xankəndidən bütün dünyaya və Ermənistana bir daha mesaj verdi ki, Qarabağ Azərbaycandır, artıq bu gerçəyi kimsə inkar edə bilməz. Bəzi beynəlxalq təşkilatlar və Ermənistanın havadarları anlasınlar ki, bu gün Azərbaycanın ərazi bütövlüyü bu xalqın qanı-canı bahasına əldə edilib və heç kim bir də bu torpaqlara göz dikməsin. Bu suverenlik, bu müstəqillik bu xalqa ana südü kimi halaldır.

İlham Əliyevin səs vermək üçün Xankəndini seçməsi böyük siyasi gediş olmaqla bərabər, həm də o 20 illik Prezidentliyinin yekun hesabatı idi. Prezident 20 il əvvəl Qarabağı işğaldan azad etmək üçün çıxdığı yolun sonuna ailə üzvləri ilə birlikdə Xankəndidə çatdı. 7 fevralın sensasiya doğuracaq təntənəsi olan bu səsvermə illərlə erməni separatçılarının şər yuvası, qərargah etdikləri binada keçirildi. Bu o demək idi ki, nə Xankəndi, nə də həmin bina separatizm ünvanı olacaq.

122 saylı Xankəndi Seçki Dairəsinin 14 saylı məntəqəsi Xankəndi şəhərinin mərkəzində yerləşirdi. Özü də, qeyd etdiyimiz kimi, keçmiş mərkəzi inzibati binada. Yəni separatçı rejimin yuva saldıqları binada. İndi həmin binanın üzərində Azərbaycanın gerbi, qarşısında isə bayrağı asılıb.

Məntəqəyə səsverməyə gələnlər böyük ruh yüksəkliyi və sevinc hissi ilə səs verirdilər. Hansı namizədə səs verdiklərini soruşmağa ehtiyac yox idi, üz ifadələrindən, gözlərindəki sevincdən görmək olurdu ki, seçimləri böyük Zəfərin davamıdır.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

azerbaijan-news.az

Azərbaycan.- 2024.- 8 fevral, № 27.- S.1, 8.